# "Prezident kuboku" uğrunda marafon



21 dekabr 2025-ci il tarixdə Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Qəbələ Rayon İcra Hakimiyyətinin, Azərbaycan Atletika Federasiyasının, Zəfər Qaçış Klubunun təşkilatçılığı və Referans Medical Groupun tibbi dəstəyi ilə Qəbələ şəhərində "Prezident kuboku" uğrunda marafon qaçışı keçirilib. "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Prezident kuboku" uğrunda keçirilən marafon yarışının rəsmi açılış mərasimində çıxış edənlər Azərbaycan idmanına göstərilən böyük diqqət və qayğının, idmanın geniş vüsətlə inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu, dahi liderin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə digər sahələrə olduğu kimi, idmanın da inkişafına diqqətlə yanaşdığını, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə paytaxt Bakı ilə yanaşı, demək olar ki, bütün regionlarımızda mükəmməl idman infrastrukturunun yaradıldığını qeyd edərək, 2025-ci il üçün respublikamızın "İdman paytaxtı" seçilmiş Qəbələdə çoxlu sayda silsilə tədbirlərin və idman yarışlarının keçirildiyini vurğulamış və marafon qaçışı iştirakçılarına uğurlar arzulamışlar. "Qürurla irəli" şüarı altında 12 km məsafəyə təşkil olunan "Prezident kuboku" uğrunda keçirilən yarışın sonunda qaliblər mükafatlandırılmışdır.




# "Konstitusiya və Suverenlik İli" - bir-birini tamamlayan iki tarixi hadisə

(Əvvəli 5-ci səhifədə).

2025-ci il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Azərbaycan Respublikasının Konstitusiyası Günü və 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" bir-birini tamamlayan iki tarixi hadisədir. Əgər 1995-ci il Konstitusiyanın qəbulu ilə müstəqil dövlətin hüquqi əsasları qoyulmuşdusa, 2020-2023-cü illərdə əldə olunan tarixi qələbələr nəticəsində Konstitusiyanın ərazi bütövlüyü və suverenlik prinsipi tam reallaşdı. Bu gün Azərbaycan dövləti və xalqı Ulu Öndər Heydər Əliyevin ideyaları, Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində hüquqi dövlətin və suveren Azərbaycanın daha da möhkəmlənməsi istiqamətində uğurla irəliləyir.

**Ramella QULIYEVA,**
**Şuşa rayon 24 nömrəli ümumi orta məktəbin uşaq və gənclər birliyinin rəhbəri.**

# Biz birlikdə güclüyük

Dünya Azərbaycanlılarının Həmrəylik Günü xalqımızın birlik, həmrəylik və vətənə bağlılıq ruhunu təcəssüm etdirir.

Azərbaycan müstəqillik qazananadək çəkdiyi acıları ilə bərkiyərək böyük bir hünər göstərdi. 44 günlük Vətən müharibəsində öz həmrəyliyini dünyaya bəyan etdi və bu gün də həmin mübarizə yolunu davam etdirir. Vətənimin işgüzar, fədakar iş adamları dünyanın hər bir qitəsində çalışaraq doğma Azərbaycanına öz dəstəyini əsirgəmir, vətənini layiqincə təmsil edir. Bu gün də fəxarətlə deyə bilərik ki, azərbaycanlıların harda olub olmamasından asılı olmayaraq bir şuarı bayraq tutur. Bu irsi, bu yolu bizə bəxş edən Ulu Öndər Heydər Əliyev olmuşdur. Onun qürurla yumruğunu qaldıraraq dediyi o könüllərdə iz buraxan "Mən fəxr edirəm ki, azərbaycanlıyam" sözləri bu gün də bizi həmrəyliyə çağırır. 31 dekabr hər bir Azərbaycanlının evində toy bayramı kimi qarşılanır.

**Şəhla XƏLILQIZI,**
**"Qəbələ səsi" qəzetinin ştatdankənar müxbiri.**

# AZAL-ın "Embraer 190" təyyarəsinin qəzaya uğramasından bir il ötür

Bir il əvvəl, dekabrın 25-i 2025-ci ili qarşılamağa hazırlaşan Azərbaycan xalqı günortaya doğru gələn bir xəbərlə sarsılıb: "Azərbaycan Hava Yolları" aviaşirkətinin J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Qazaxıstanın Aktau şəhərinin 3 kilometr yaxınlığında qəza enişi edib".

Hadisədən sonra verilən məlumatlarda bu zaman 38 nəfərin həlak olduğu, 29-nun yaralandığı bildirilib.

Həmin gün Sankt-Peterburq şəhərində keçiriləcək MDB-yə üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib.

Təyyarədə olarkən dövlətimizin başçısı tərəfindən qəzanın səbəblərinin araşdırılması və təxirəsalınmaz tədbirlərin görülməsi üçün aidiyyəti dövlət qurumlarına lazımi tapşırıqlar verilib.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Baş nazir Əli Əsədovun sədrliyi ilə dövlət komissiyası yaradılıb. Prezidentin tapşırığına uyğun olaraq, faciəvi qəza ilə əlaqədar Azərbaycanın fövqəlada hallar naziri, eləcə də rəqəmsal inkişaf və nəqliyyat nazirinin rəhbərlik etdiyi heyət Qazaxıstana yola düşüb.

Hadisənin ardınca Azərbaycanın Baş Prokurorluğunda cinayət işi açılıb və Qazaxıstanın müvafiq qurumu ilə istintaqa başlanılıb.

Prezident İlham Əliyevin Sərəncamına əsasən, dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib.

Dekabrın 27-də qəzanın səbəbləri barədə jurnalistlərə müsahibə verən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev yerdə olan təyyarə qalıqlarına və şahid ifadələrinə əsasən mütəxəssislərin gəldiyi ilkin qənaəti açıqlayıb. Təyyarəyə kənar müdaxilə olmuşdu: "Ancaq kənar müdaxilənin hansı növ silahdan olduğunu istintaq müəyyənləşdirəcək".

Prezident İlham Əliyev dekabrın 29-da Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Televiziyasına müsahibə verib. Jurnalistin "Cənab Prezident, bəs, ümumilikdə Azərbaycanın baş verənlərlə bağlı Rusiyadan gözləntiləri və tələbləri nədən ibarətdir?" sualını ölkə başçısı belə cavablandırıb: "Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırılıb. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir".

Azərbaycan Dövlət Mülki Aviasiya Agentliyinin müraciəti əsasında qəzanın səbəblərini araşdırmaq, texniki və əməliyyat təhlillərini aparmaq və qəza vəziyyətini təmin etmək üçün Türkiyədə 8 nəfərdən ibarət istintaq komissiyası yaradılıb. Türkiyənin yaratdığı komissiya "qara qutu"nun oxunmasında və qəzanın araşdırılmasında iştirakçı kimi çıxış edib.



Həmin hadisə nəticəsində dünya Azərbaycanın yeni qəhrəmanları ilə tanış olub. Bu dəfə onlar 5 nəfərlik ekipaj üzvləri idilər. Təəssüf ki, onlardan 3-ü xidməti vəzifə borclarını peşəkarcasına yerinə yetirərkən həlak olub, digər 2-si isə yaralanıb. Ekipaj üzvlərinin canları bahasına olsa da, onların sərnişinləri xilas etmək cəhdləri tarixə həkk olunub. Xüsusilə stüardessa Hökumə Əliyevanın ölümlə üz-üzə ikən sərnişinləri sakitləşdirməyə çalışması, olacaqları bilə-bilə göyərtədəkilərə kövrək səslə "Hər şey yaxşı olacaq!" ümid mesajını verməsi, son tapşırığını uğurla yerinə yetirməsi ölkəmizdə böyük heyranlıqla qarşılanıb, hətta ölkə hüdudlarından kənarda cəsarəti, dəyanəti və peşəkar Azərbaycan qadınının obrazını formalaşdırıb.

Prezident İlham Əliyevin dekabrın 29-da imzaladığı Sərəncam ilə Kşnyakin İqor İvanoviç, Kalyaninov Aleksandr Georgiyeviç, Əliyeva Hökumə Cəlil qızı "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə, Əsədov Zülfiqar Sərdar oğlu, Rəhimli Aydan Vaqif qızı 1-ci dərəcəli "Rəşadət" ordeni ilə təltif edibillər.

Bu il oktyabrın 9-da Düşənbədə Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub. Görüş zamanı Vladimir Putin hadisədən sonra Prezident İlham Əliyev ilə birinci telefon danışığı əsnasında faciənin məhz Rusiya səmasında baş verdiyinə görə üzr istədiyini, həm də həlak olanların ailələrinə ən səmimi başsağlığı verdiyini xatırladıb. Rusiya Prezidenti deyib ki, bu cür faciəli vəziyyətlərdə tələb olunduğu kimi, Rusiya tərəfindən kompensasiya üzrə hər şey ediləcək və bütün vəzifəli şəxslərin hərəkətlərinə hüquqi qiymət veriləcək.

Hər zaman haqq-ədaləti bərpa etməyə qadir olan Azərbaycanın bu hadisənin təfərrüatlarını da təfsilatlı şəkildə öyrənəcəyi və günahkarların cəzalanması ilə bağlı istəyinə çatacağı şübhə doğurmur.

**"Qəbələ səsi"**

# Güclü gələcəyin təməli

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir və güclü dövlət quruculuğunda təhsil və tibb sahələrini əsas prioritetlərdən biri hesab etmişdir. O, dəfələrlə vurğulamışdır ki, təhsil millətin gələcəyini, tibb isə cəmiyyətin sağlamlığını müəyyən edən başlıca amillərdir.

Heydər Əliyevin fikrincə, savadlı və dünyagörüşlü gənclərin yetişdirilməsi hər bir dövlətin ən mühüm vəzifəsidir. Məhz bu səbəbdən onun rəhbərliyi dövründə təhsil sisteminin inkişafına xüsusi diqqət yetirilmiş, müəllim əməyinə yüksək qiymət verilmişdir. Ulu Öndər müəllimi cəmiyyətin aparıcı qüvvəsi hesab edərək bildirirdi ki, müəllim gələcək nəsli formalaşdıran ən əsas şəxsdir.

Tibb sahəsi də Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. O, insan sağlamlığını xalqın ən böyük sərvəti adlandırır, səhiyyənin inkişafını dövlət siyasətinin mühüm istiqaməti kimi dəyərləndirirdi. Onun təşəbbüsü ilə səhiyyə müəssisələrinin maddi-texniki bazası gücləndirilmiş, həkimlərin peşəkar hazırlığına önəm verilmişdir.

Bu gün Azərbaycanda təhsil və səhiyyə sahəsində əldə olunan uğurlar Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun davamıdır. 12 dekabr - onun anım günü münasibətilə biz böyük dövlət xadiminin əziz xatirəsini dərin ehtiramla yad edir, zəngin irsini minnətdarlıqla xatırlayırıq.

**Gülnar HÜMBƏTOVA,**
**Qəbələ şəhər 24 saylı tam orta məktəbin müəllimi.**